AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

MÜASİR BRİTANİYA MEDİA MƏTNLƏRİNDƏ BREKSİTLƏ BAĞLI SÖZ VƏ İFADƏLƏRİN PRAQMATİK XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5708.01 – "German dilləri"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Tərgül Ehtibar qızı Əlizadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin Dillər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
Azad Yahya oğlu Məmmədov

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
Könül Elxan qızı Abdurəhmanova

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Fatimə Mayis qızı Vəliyeva

filologiya elmləri üzrə fəlsəfə doktoru
Milana Yunis qızı Abbasova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədr müavini: filologiya elmləri doktoru, dosent
Həmidə Əhməd qızı Əliyeva

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri doktoru, dosent
Aysel İlqar qızı Məmmədbəyli

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
Şəfəqət Abdulla qızı Mahmudova

TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Müasir dövrdə baş verən siyasi, iqtisadi və sosial proseslər dilin inkişafına, onun lüğət tərkibinə və kommunikativ imkanlarına birbaşa təsir göstərir. Böyük Britaniyanın Avropa İttifaqından çıxması ilə nəticələnən Breksit prosesi də bu baxımdan müasir ingilis dilinin inkişafına təsir edən mühüm hadisələrdən biri olmuşdur. Referendum ərəfəsində və sonrakı mərhələlərdə ictimai-siyasi diskursda yeni terminlər, neologizmlər, metaforik ifadələr və qiymətləndirici leksik vahidlər meydana çıxmış, onların əhəmiyyətli hissəsi Britaniya mətbuatı vasitəsilə geniş yayılmışdır. Qəzetlər, televiziya və sosial media yalnız informasiya ötürən vasitə kimi deyil, həm də yeni dil vahidlərinin formalaşmasına, yayılmasına və gündəlik nitqdə möhkəmlənməsinə təsir göstərən əsas kommunikasiya platformaları kimi çıxış etmişdir.

Breksitlə bağlı yaranmış *Breksiteer, Remoaner, Bregret, Regrexit, Breksiting* kimi neologizmlər, eləcə də *soft Breksit, hard Breksit, no-deal Breksit* və digər terminoloji birləşmələr ingilis dilinin leksik sistemində baş verən dəyişikliklərin bariz nümunələridir. Bu leksik vahidlər yalnız yeni siyasi reallıqları ifadə etmir, həm də müəyyən ideoloji mövqeləri, emosional münasibətləri və qiymətləndirici çalarları əks etdirir. Xüsusilə tabloid və broadsheet qəzetlərində istifadə olunan dil vasitələrinin müqayisəsi göstərir ki, eyni hadisə müxtəlif diskurs strategiyaları və praqmatik məqsədlər çərçivəsində təqdim edilə bilir. Bu səbəbdən Breksit terminlərinin semantik, praqmatik və funksional xüsusiyyətlərinin, onların media diskursunda yerinə yetirdiyi funksiyaların və gündəlik dilə təsirinin öyrənilməsi müasir leksikologiya, praqmatika, diskurs təhlili və media dilçiliyi üçün aktual elmi məsələlərdən biridir.

Breksit diskursu son illərdə xarici tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Siyasi və media diskursunun nəzəri əsasları, ideologiyanın dil vasitəsilə ifadəsi, manipulyativ strategiyalar və metaforların funksiyaları N.Feyrklaf, T.A.Van Deyk, R.Vodak, P.Çilton, C.Çarteris-Blek, A.Binqəm, K.Uilyams və A.Muzolf kimi alimlərin əsərlərində geniş şəkildə araşdırılmışdır. Onların

tədqiqatları siyasi diskursun dil vasitələri ilə qurulması və media mətnlərinin ictimai rəyin formalaşmasına təsiri istiqamətində mühüm nəzəri baza yaratmışdır. A.Məmmədov, A.Budaqova, G.Allahverdiyeva, B.Əsgərova, A.Mehbəliyeva, M.Mönsümova, E.Zeynalov media diskursu, onun leksik və qrammatik xüsusiyyətləri haqqında geniş tədqiqatlar aparmışdır.

Breksit mövzusuna həsr olunmuş tədqiqatlarda müxtəlif istiqamətlər üzrə araşdırmalar aparılmışdır. C.Simpson və N.Startin, F.Zappetini, M.Henskə və S.Bauhovits sosial medianın referendum kampaniyasının gedişinə və ictimai rəyin formalaşmasına təsirini təhlil etmişlər. K.Qarsiya Kaseles, Y.Karavayeva *Breksit* sözünün leksik vahid kimi formalaşmasını və ingilis dilində istifadəsini izah etmişdir.

Breksit diskursunun dilçilik aspektləri də geniş tədqiqat obyekti olmuşdur. G.Laliç-Krstin Breksit nəticəsində yaranmış neologizmlərin formalaşma yollarını və funksional xüsusiyyətlərini təhlil etmişdir. N.Silaşki və T.Duroviç siyasi karikaturalarda istifadə olunan səyahət metaforlarının xüsusiyyətlərini müəyyənləşdirmiş, V.Broz Britaniya mətbuatında Breksitin təqdimatını korpus əsaslı tənqidi diskurs təhlili baxımından öyrənmişdir. V.Koller, S.Kof və F.Miglbauerin redaktəsi ilə nəşr olunan "*Discourses of Brexit"* əsərində isə Breksit diskursu müxtəlif nəzəri və metodoloji istiqamətlərdən araşdırılmışdır.

Göstərilən tədqiqatlar Breksitin siyasi kommunikasiya, media diskursu, sosial media, metaforlar, neologizmlər və korpus dilçiliyi baxımından müxtəlif aspektlərini əhatə etsə də, Britaniya qəzetlərinin müxtəlif növlərində işlədilən Breksit terminlərinin semantik, praqmatik və funksional xüsusiyyətlərinin müqayisəli şəkildə araşdırılması, həmin terminlərin media diskursunda yerinə yetirdiyi funksiyaların müəyyənləşdirilməsi və onların gündəlik dilə təsirinin kompleks şəkildə öyrənilməsi hələ də tam əhatə olunmamışdır.

Azərbaycan dilçiliyində isə Breksit hadisəsinin dilçilik aspektləri üzrə sistemli tədqiqatların sayı olduqca məhduddur. Mövcud araşdırmalar daha çox siyasi və iqtisadi məsələlərə həsr olunmuş, Britaniya qəzet diskursunda formalaşan terminologiyanın, neologizmlərin, metaforların və praqmatik xüsusiyyətlərin kompleks

təhlili isə kifayət qədər diqqət mərkəzində olmamışdır. Təqdim olunan dissertasiya məhz bu elmi boşluğu doldurmağa yönəlmişdir. Tədqiqatda Britaniyanın *tabloid* və *broadsheet* qəzetlərində işlədilən Breksit terminlərinin semantik, praqmatik və funksional xüsusiyyətləri müqayisəli şəkildə təhlil edilir, onların yaranma yolları və media diskursunda yerinə yetirdiyi funksiyalar müəyyənləşdirilir. Əldə olunan nəticələrin müasir ingilis dilinin leksikologiyası, praqmatika, diskurs təhlili, media dilçiliyi və tərcüməşünaslıq sahələrində aparılan elmi araşdırmalar üçün nəzəri və praktik əhəmiyyət daşıdığı düşünülür.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyektini Böyük Britaniyanın Avropa İttifaqından çıxması (Breksit) prosesi ilə bağlı Britaniya qəzet diskursunda formalaşmış leksik vahidlər, terminlər, neologizmlər və onların işlənmə xüsusiyyətləri təşkil edir. Tədqiqat çərçivəsində tabloid və broadsheet qəzetlərdə Breksitlə əlaqədar istifadə olunan söz və ifadələr, onların semantik, praqmatik və funksional xüsusiyyətləri, eləcə də media diskursunda yerinə yetirdikləri kommunikativ funksiyalar araşdırılır. Bundan əlavə, Breksit terminologiyasının müasir ingilis dilinin lüğət tərkibinə və gündəlik nitqə təsiri də tədqiqat obyektinin əsas komponentlərindən biri kimi nəzərdən keçirilir.

Tədqiqatın predmeti isə media mənbələrində işlədilən Breksitlə bağlı söz və ifadələrin ümumiləşdirilməsi və onların praqmatik funksiyalarının araşdırılaraq sistemləşdirilməsidir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi Britaniyanın Avropa Birliyindən çıxması prosesinin geniş müzakirə olunduğu qəzet və jurnal mətnlərində həmin prosesi əks etdirən yeni söz və ifadələri aydınlaşdırmaqdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

– Britaniya mediasının keçdiyi tarixi mərhələləri araşdırmaq;

– Britaniya media diskursunu və dilini analiz etmək;

– Breksit prosesinə təkan verən tarixi məqamları öyrənmək;

– Britaniyanın Avropa Birliyindən çıxması ilə əlaqədar media sənədlərində yeni yaranan söz və ifadələrin ingilis dilinin leksikonuna təsirini araşdırmaq;

– Breksitlə bağlı yaranan söz və ifadələrin ifadə etdikləri ikili mənaları izah etmək; Bu ifadələrin kontekstdə necə formalaşdığı, hansı məqsədlə istifadə edildiyi və dinləyici/oxucuya necə təsir göstərdiyi məsələləri tədqiqatın əsas istiqamətlərindəndir.

– Britaniya media diskursunda dərc edilən qəzet və məqalələrin tərkibində Breksitlə bağlı pozitiv söz və ifadələri təyin etmək;

– Britaniya media diskursunda Britaniyanın Avropa Birliyindən çıxmasını mənfi addım hesab edən qəzet və məqalələrin tərkibində işlənən neqativ söz və ifadələri açıqlamaq;

– Britaniyanın Avropa Birliyini tərk etməsini dəstəkləyən qəzet və televiziya kanallarında inandırma vasitəsi kimi istifadə olunan söz və ifadələrdən nümunə gətirmək;

– Britaniyanın Avropa Birliyindən çıxmasını hədəf alan referendumdan sonra xalqı nəzarətdə saxlamağa çalışan və Breksiti hədəf alan qəzet və jurnalların tərkibində istifadə olunan söz və ifadələri təhlil etmək.

Tədqiqat metodları. Tədqiqatda qarşıya qoyulmuş vəzifələrin həlli üçün təsviri, tənqidi diskurs təhlili, müqayisəli-qarşılaşdırma və funksional təhlil metod və üsullarından istifadə edilmişdir. Təsviri metoddan yararlanmaqla tarixi məqamların araşdırılması mümkün olmuşdur. Nəzəri bilgilərin təqdim olunması, tarixi hadisələrin xronoloji ardıcıllıqla təsviri və bu hadisələrin həmin ardıcıllığa uyğun şəkildə sistemləşdirilməsi təmin edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar:

– Britaniya mediasının güclü təsirə malik olması və cəmiyyətdə baş verən proseslərə təkan verməsi onun həm siyasi diskurs, həm də media diskurs təhlilində istifadə olunmasına rəvac vermişdir;

– Britaniya media diskursunu araşdıran zaman deyksis və deyktik elementlərin işlənməsi mətnin praqmatik xüsusiyyətlərini aydınlaşdırmağa kömək edir;

– "Breksit" anlayışının və bu anlayışla bağlı yaranmış semantik cəhətdən oxşar nitq nümunələrinin tədqiqi leksik və semantik təhlili şərtləndirir.

– "Breksit" mövzusunun Britaniya mətbuatında təsir dairəsinə görə *"tabloid"* və *"broudsheet"* qəzetlərində üslub fərqlərinin yaranmasına səbəb olmuşdur;

– Breksitlə əlaqəli *tabloid* və *broudsheet* qəzetlərdəki mətnlərin araşdırılması zamanı linqvistik korpusun əsas elementlərindən sayılan leksik, sintaktik və diskurs elementlərinin fərqli cəhətlərinə rast gəlinmişdir;

– Breksit konsepti müasir ictimai və siyasi proseslərdən yararlanmaqla məlum lekal əsasında yeni mikrokonseptlərin yaranmasına səbəb olur (məsələn, *"Grexit", "Fixit"*);

– "Breksit" anlayışına daxil olan leksik və frazeoloji vahidlər, həmçinin müvafiq semantikalı söz birləşmələri əsas məna daşıyıcıları kimi istifadə olunurlar;

– Britaniya media mənbələrində Breksitlə bağlı söz və ifadələrin inandırma vasitəsi kimi çıxış edir;

– Britaniya media mənbələrində Breksitlə bağlı söz və ifadələrin təsiretmə vasitəsi kimi çıxış edir.

Tədqiqatın elmi yeniliyi. Dissertasiyanın elmi yeniliyi Breksit prosesinin Britaniya qəzet diskursunda yaratdığı leksik və praqmatik dəyişikliklərin kompleks şəkildə araşdırılması ilə müəyyən olunur. Tədqiqat çərçivəsində ilk dəfə olaraq tabloid və broadsheet qəzetlərdə işlədilən Breksit terminləri müqayisəli şəkildə təhlil edilmiş, onların semantik, praqmatik və funksional xüsusiyyətləri müəyyənləşdirilmişdir.

Tədqiqatın elmi yeniliyini aşağıdakı müddəalar təşkil edir:

– Breksitlə bağlı yaranmış terminlər və neologizmlər semantik, praqmatik və sözyaratma xüsusiyyətləri baxımından sistemləşdirilmiş, onların müasir ingilis dilinin lüğət tərkibinin zənginləşməsində rolu müəyyən edilmişdir.

– Britaniya qəzet diskursunda Breksit terminlərinin kommunikativ və praqmatik funksiyaları ilk dəfə kompleks şəkildə araşdırılmış, onların oxucuya təsir və ictimai rəyin formalaşdırılması baxımından əhəmiyyəti müəyyənləşdirilmişdir.

– Tabloid və broadsheet qəzetlərdə istifadə olunan Breksit terminologiyası müqayisəli təhlil edilmiş, müxtəlif media növlərində termin seçimində və dil strategiyalarında müşahidə olunan oxşar və fərqli cəhətlər müəyyən edilmişdir.

– Qəzet mətnlərində istifadə olunan dil vasitələrinin inandırma, manipulyasiya və ideoloji təsir funksiyaları praqmatik aspektdən

təhlil olunmuş, terminoloji vahidlərin media diskursunda yerinə yetirdiyi kommunikativ funksiyalar müəyyənləşdirilmişdir.

Breksit prosesi nəticəsində meydana çıxmış yeni söz və ifadələrin yaranma yolları, işlənmə xüsusiyyətləri və gündəlik ünsiyyətə təsiri araşdırılmış, onların müasir ingilis dilində neologizmlərin inkişafına verdiyi töhfə müəyyən edilmişdir.

– Tədqiqat nəticəsində əldə olunan elmi qənaətlər Britaniya media diskursunda Breksit terminologiyasının funksional xüsusiyyətlərini sistemli şəkildə ümumiləşdirərək müasir ingilis dilinin leksikologiyası, praqmatika və diskurs təhlili sahələrinə yeni elmi material təqdim edir.

Dissertasiyada Azərbaycan dilçiliyində media diskursunda Breksitlə bağlı işlənən leksik və frazeoloji vahidlərin praqmatik xüsusiyyətləri ilk dəfə olaraq kompleks şəkildə araşdırılmışdır. Breksit diskursunda istifadə olunan söz və ifadələrin ideoloji mövqeləndirmə, qiymətləndirmə, inandırma və manipulativ təsir yaratma xüsusiyyətləri aşkara çıxarılmışdır. Britaniya media mətnlərində Breksitlə bağlı dil vahidləri müqayisəli şəkildə tədqiq edilmiş və onların praqmatik fərqləri müəyyən edilmişdir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri əhəmiyyəti onunla müəyyənləşir ki, onun nəticələri praqmatika, diskurs təhlili, media dilçiliyi və siyasi kommunikasiya sahələrində mövcud nəzəri biliklərin zənginləşdirilməsinə töhfə verə bilər. Tədqiqat işində əldə olunan nəticələr siyasi diskursun, media diskursunun və praqmatik dilçilik problemlərinin öyrənilməsində aparılan gələcək tədqiqatlar üçün nəzəri mənbə ola bilər.

Tədqiqatın praktiki əhəmiyyəti onun nəticələrindən ali təhsil müəssisələrində ingilis dili, tərcümə, media dili, siyasi diskurs, praqmatika və leksikologiya fənlərinin tədrisində, müvafiq dərs vəsaitlərinin və tədris materiallarının hazırlanmasında, eləcə də Breksit və media diskursu üzrə gələcək elmi tədqiqatlarda istifadə oluna bilməsi ilə müəyyən olunur.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas nəticələri barədə Respublika və Beynəlxalq elmi-praktiki konfranslarda məruzələr edilmişdir. Tədqiqatın materialları və nəticələri ölkəmizdə və xaricdə çap olunmuş elmi məqalələrdə öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin "Dillər" kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi – 7 səhifə, 11968 işarə, I fəsil – 45 səhifə, 87271 işarə, II fəsil – 37 səhifə, 74160 işarə, III fəsil – 51 səhifə, 101397 işarə, Nəticə hissəsi – 3 səhifə, 4250 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 279046 işarədən ibarətdir.

TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın elmi yeniliyi, habelə məqsəd və vəzifələri, metodoloji əsasları, aprobasiyası və tətbiqi barədə məlumat verilir.

Dissertasiyanın **"Media diskursu və Breksit"** adlanan birinci fəslində media diskursunda Breksit anlayışı haqqında izahlar verilir. Breksit təkcə siyasi qərar deyildi – bu, eyni zamanda Britaniya cəmiyyətini iki yerə bölən bir informasiya savaşı idi. Bu savaşın ön cəbhəsində, sözün əsl mənasında, media dayanırdı.

Xüsusilə Britaniya mətbuatında tabloid və broadsheet qəzetləri arasında ciddi üslub fərqləri nəzərə çarpırdı. *The Sun, Daily Mail, Daily Express* kimi tabloid nəşrlər emosional başlıqlar, sadə və sərt dil ilə çıxış edirdilər. Onların səhifələrində Avropa İttifaqı çox vaxt Britaniyanın azadlığına maneə kimi göstərilirdi. Əvəzində, *The Guardian* və *The Times* kimi broadsheet qəzetlər Breksiti daha dərin, analitik və tənqidi prizmadan işıqlandırır, iqtisadi və hüquqi fəsadlara diqqət çəkirdilər.

Breksit dövründə mediada dil də dəyişdi. Yeni ifadələr, yeni terminlər yaranmağa başladı: *Brexiteer, Remoaner, Project Fear, Regrexit* kimi sözlər təkcə Breksitə aid deyildi – onlar eyni zamanda insanların hansı tərəfdə durduğunu, hansı dünyagörüşünü paylaşdığını göstərirdi.

Bütün bunlar göstərdi ki, media yalnız hadisələrin güzgüsü deyil – o, bəzən bu hadisələrin yaradıcısı və təşviqatçısı da olur.

Britaniya mediası Breksit prosesi boyunca cəmiyyətin fikirlərini formalaşdırdı. Bu məqsədə nail olmaq üçün müxtəlif strateji vasitələrdən istifadə etdi. Bəzən qorxu oyatdı, ümid verdi, hiddət doğurdu və bəzən də çaşqınlıq yaratdı.

Bu hadisə bir daha sübut etdi: dil sadəcə ünsiyyət vasitəsi deyil, gücdür. Bu gücü necə və kimlərin istifadə etməsi isə hər birimizin taleyinə təsir edir.

I fəslin ***"Britaniya media diskursu haqqında ümumi məlumat***" adlı birinci paraqrafında Britaniya və onun tarixi inkişaf yolları haqqında məlumat verilir. M.Conboy, B.Makneyr, B.Franklin, K.Uilyams, J.Şalabi kimi müəlliflər Britaniya jurnalistikasının inkişaf mərhələləri, tabloid qəzetlərin istifadə etdiyi dil xüsusiyyətləri, xəbər mətnlərinin strukturu əsasında tədqiqatlar aparmışdır. XIX əsrin ikinci yarısından etibarən Britaniya mətbuatında müxtəlif auditoriyalara yönəlmiş qəzetlər meydana çıxmağa başladı. *The Guardian (1821), The Economist (1843), The Daily Telegraph (1855)* və *The Financial Times* (1888) kimi qəzetlər analitik yazıları, siyasi şərhləri və iqtisadi xəbərləri ilə seçilərək keyfiyyətli jurnalistikanın inkişafına töhfə verdilər. Britaniya mətbuatında ciddi jurnalistika sayılan broadsheet qəzetlər (*The Times, The Guardian, Financial Times*) və "sarı qəzetlər" adlanan tabloid qəzetlər (*The Sun, Daily Mail, Daily Mirror, Daily Express*) mövcuddur. Qəzetlər müəyyən siyasi partiyalara açıq şəkildə sədaqətlərini bildirir və oxucularını həmin partiyaya uyğun səs verməyə təşviq edirlər[1].

Broadsheet qəzetlər faktlara əsaslanan, uzun cümlələrə yer verir. Bu qəzetlər qərəzsiz, aydın dillə izah edilə bilən hissələrdən təşkil olunur. Mürəkkəb söz və söz birləşmələrinə üstünlük verir. Daha çox yerli və xarici xəbərlərə əhəmiyyət verir. Onların strukturuna fikir versək görərik ki, *broadsheet* qəzetlərdə başlıqlar daha uzun, daha məlumat vericidir. Tabloid qəzetlərdə isə daha qısa, səhifənin çox hissəsini əhatə edən formadadır. Şəkillər də tabloid

[1] Bingham, A., & Conboy, M. Tabloid Century: The Popular Press in Britain, 1896 to the Present. – Oxford: Peter Lang, – 2015. – 258 p.

qəzetlərdə geniş yer tutur. *Broadsheet* qəzetlər xüsusi əlavə hissəyə malikdir[2].

K.Uilyams göstərir ki, broadsheet qəzetləri siyasi və iqtisadi məsələlərin analitik təhlilinə üstünlük verdiyi halda, tabloid qəzetlər emosional ifadələrdən, sensasion başlıqlardan və vizual vasitələrdən daha geniş istifadə etmişdir[3].

A.Budaqova ingilisdilli media mətnlərini funksional aspektdən araşdıraraq, media dilinin yalnız informasiyanın ötürülməsi vasitəsi olmadığını, eyni zamanda müəyyən kommunikativ, praqmatik və qiymətləndirici funksiyaları yerinə yetirdiyini göstərir[4]. Tabloid qəzetlər – *The Sun, Daily Mail, Daily Express* kimi nəşrlər emosional, provokativ və çox zaman təhrifedici ifadələrlə tanınır. Onlar sadə, qısa cümlələrdən istifadə edərək, oxucunu hadisəyə emosional reaksiya verməyə sövq edirlər. Tabloid qəzetlərə xas cəhətlər qısa cümlələr, elliptik strukturlar, fəal növ, güclü feillər və başlığa uyğunlaşdırılmış sintaktik yığcamlıqdır. Broadsheet qəzetlərdə isə mürəkkəb cümlələr, tabeli budaq cümlələr, səbəb-nəticə konstruksiyaları, passiv konstruksiyalar və izahlı sintaktik strukturlar daha geniş istifadə olunur.

M.Mönsümovanın yanaşması baxımından media mətnlərinin təhlili zamanı onların yalnız leksik və qrammatik xüsusiyyətlərinin deyil, həm də kommunikativ məqsədinin, kontekstinin, auditoriyaya təsir imkanlarının və sosial funksiyasının nəzərə alınması vacibdir.[5] Media diskursunda seçilən söz və ifadələr informasiyanı çatdırmaqla yanaşı, müəyyən hadisə və şəxslərin müsbət və ya mənfi şəkildə təqdim edilməsinə, ictimai münasibətin formalaşdırılmasına və konkret mövqenin legitimləşdirilməsinə xidmət edə bilər.

B.Əsgərova qeyd edir ki, məlumatlandırma xarakterli yanaşma broadsheet qəzetlərində məlumat vahidlərinin müxtəlif sintaktik və

[2] Jucker, A.H. Social Stylistics Syntactic Variation in British Newspapers. – Berlin – New York: Mouton de Gruyter, – 1992. – 297 p.

[3] Williams, K. Read all about it! A History of the British Newspaper /Abingdon: Routledge, – 2010. – 320 p.

[4].Budaqova, A.M. İngilisdilli media mətnlərinin funksional tədqiqi / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2017. – 25 s.

[5] Mönsümova, M. Media diskursa dair tədqiqatlarda əsas anlayışlar. // – Bakı: ADU, Elmi xəbərlər, – 2021. №1, – s.31-37.

semantik əlaqələr əsasında təşkilində özünü göstərir. Broadsheet diskursunda informasiya daha mürəkkəb sintaktik strukturlar vasitəsilə genişləndirilir, səbəb-nəticə əlaqələri və faktoloji göstəricilər ardıcıl şəkildə təqdim olunur.

Van Dayk qeyd edir ki, mövzular (makro əlaqələr) xəbər başlıqlarında özünü göstərir. Çünki xəbər başlıqları ümumi əlaqəni və ya diskursun semantik vahidini müəyyən edir. Tabloid qəzetlərin oxucuları emotiv dilə qavradığı halda broadsheet qəzetlərin oxucuları daha analitik dilə öyrəşiblər. Broadsheet qəzetlərdə başlıqlar daha uzun, daha məlumat vericidir. Tabloid qəzetlərdə isə başlıqlar daha qısa, səhifənin çox hissəsini əhatə edən formadadır. Şəkillər də *tabloid* qəzetlərdə geniş yer tutur. *Broadsheet* qəzetlərdə isə başlıqlardan sonra *lead*, yəni əsas hissəyə yer verirlər. Daha sonra ikinci məqaləyə yer verirlər. Burada şərh və elan bölməsi də var. *Broadsheet* qəzetlərin başlıqları isə sadə və asan olduğu halda, *tabloid* qəzetlərin başlıqları daha ekstravaqant və səs-küylüdür. Başlıqlar uzun cümlələrin əvəzinə daha qısa mürəkkəb ismi birləşmələrdən ibarətdir. Məsələn, tabloid qəzetdə yer verilən "Bank Girl Killer Clues" – "Bank işçisi qızın qətl izləri." ifadəsi broadsheet qəzetdə *"Clues to the Killer of the Girl who Worked in a Bank"* (Bankda işləyən qızın qatilinə dair izlər) əvəzinə işlənmişdir. Eyni mövzuda olan iki başlıqdan birincisi mürəkkəb ismi söz birləşməsi vasitəsilə fikrin yığcam çatdırılmasına səbəb olur. İkinci nümunədə *who-kim* əvəzliyi ilə bağlanan mübtəda budaq cümləsi mənanın daha geniş təqdim olunmasına rəvac verir. Tabloid qəzetlərdə qısa cümlələr, elliptik strukturlar, fəal növ, güclü feillər və başlığa uyğunlaşdırılmış sintaktik yığcamlıq xarakterikdir. Broadsheet qəzetlərdə isə mürəkkəb cümlələr, tabeli budaq cümlələr, səbəb-nəticə konstruksiyaları, passiv konstruksiyalar və izahlı sintaktik strukturlar daha geniş istifadə olunur.

Beləliklə, *The Guardian, The Times, Financial Times* kimi broadsheet qəzetlər daha neytral, dərin təhlilə əsaslanan və akademik leksikaya yaxın dil istifadə edirlər. Onlar hadisələri strukturlaşdırır, müxtəlif tərəflərin fikirlərinə yer verir və oxucunu təkcə xəbər almağa deyil, düşünməyə vadar edir. Bu tip diskurs daha çox elita

oxucusuna yönəlib – siyasətçilər, akademiklər, iqtisadçılar və tələbələr üçün nəzərdə tutulmuş mətbuat dil formasıdır.

I fəslin ***"Britaniya media diskursu Breksit prosesinin müasir ingilis dilinə təsirinin göstəricisi kimi"*** adlı ikinci paraqrafında Britaniyanın Avropa Birliyindən çıxması, yəni Breksit prosesi və onun ingilis dilinə təsiri araşdırılmışdır. Breksit yalnız beynəlxalq hüquqi və iqtisadi münasibətlərin yenidən tənzimlənməsi ilə nəticələnməmiş, həm də ölkədaxili ictimai rəyin, siyasi münasibətlərin və media diskursunun ciddi şəkildə transformasiyasına səbəb olmuşdur. *Brexit* sözü *Britain/British* və *exit* sözlərinin birləşməsindən yaranmış neologizmdir. Bu sözün əsas mənası Böyük Britaniyanın Avropa İttifaqından çıxması deməkdir[6].

Breksit prosesi 2016-cı il 23 iyun tarixində keçirilmiş referendumla hüquqi və siyasi müstəviyə daşınmışdır. Referendumun nəticələrinə əsasən, seçicilərin 51.9%-i Avropa Birliyindən çıxmağa, 48.1%-i isə qurum daxilində qalmağa səs vermişdir. Bu nəticə Birləşmiş Krallıqda dərin ictimai və siyasi bölünməyə səbəb olmuş, həmçinin beynəlxalq münasibətlər sistemində yeni fazanın başlanğıcını qoymuşdur[7].

Brexiteer (Breksit tərəfdarı olan fəal şəxslər), Brexiter (Breksit tərəfdarı), *Brexity* (Brexitə xas xüsusiyyət daşıyan), Brexitism (Breksit ideologiyası və ya siyasi yanaşması), *Brexthrough* (Breksitdən sonra sıçrayış və yüksəliş) və *Brexitology* (Breksit hadisəsinin sistemli və ya elmi tədqiqi) kimi yeni sözlər də formalaşmışdır[8]. Breksit əsasında yaranan sözlərin böyük bir hissəsi kontaminasiya (blending) yolu ilə əmələ gəlmişdir. Bu üsul iki müxtəlif sözün hissələrinin birləşdirilməsi ilə yeni leksik vahidin yaradılmasını nəzərdə tutur. Məsələn, *Brexodus* (*Brexit* + *Exodus*) termini Breksitdən sonra insanların və şirkətlərin Böyük Britaniyanı

[6] Fontaine, L. The early semantics of the neologism BREXIT. // Functional Linguistics, – 2017. Volume 4, Article 6. Springer. – p.1-15.

[7] David Bailey & Leslie Budd. The Political Economy of Brexit: [Electronic resource]. – 2017. URL: https://www.agendapub.com/resources/pdfs/chapters/Sample_PoliticalEconomyofBrexit.pdf

[8] Lalić-Krstin, G., & Silaški, N. From Brexit to Bregret: An account of some Brexit-induced neologisms in English. English Today, – 2018. 34(2), – p.3–8.

tərk etməsini ifadə edir. *Regrexit* (*regret* + *Brexit*) və *Bregret* (*Brexit* + *regret*) sözləri Breksit qərarından sonra yaranan peşmançılığı bildirir. *Brexiety* (*Brexit* + *anxiety*) Breksitlə bağlı narahatlıq hissini, *Brexeconomics* (*Brexit* + *economics*) isə Breksitin iqtisadi nəticələrini ifadə etmək üçün istifadə olunur. Bundan başqa, *Breturn* (*Britain* + *return*) termini Böyük Britaniyanın yenidən Avropa İttifaqına qayıtması ideyasını ifadə edən yeni neologizmdir.

Brexit termini əsasında kompozisiya (compounding) yolu ilə də çoxsaylı söz və termin birləşmələri yaranmışdır. Bunlara *Hard Brexit, Soft Brexit, No-deal Brexit, Brexit deal, Brexit Day, Brexit vote* və *Brexit negotiations* kimi ifadələr daxildir. Bu terminlər Breksit prosesinin müxtəlif siyasi, hüquqi və iqtisadi aspektlərini ifadə etmək üçün istifadə olunmuşdur.

Yeni yaranan söz və ifadələri müəyyən mikrokonseptlər şəklində təsnif etmək olar. Bu mikrokonseptlərə siyasi və strateji konseptlər (*regrexit*-Breksit qərarına peşmanlıq, *rejoiner*-yenidən Aİ-yə qoşulmaq istəyənlər, *remoaner*-Breksit əleyhdarlarına istehza, *Brexodus*-insan və şirkətlərin Aİ-ni tərk etməsi, *Breturn*-Britaniyanın yenidən Aİ-yə qoşulma istəyi), emosional və kimliklə bağlı konseptlər (*Brexiety*-Brexit+anxiety-Breksitlə bağlı narahatlıq, *Bregret*-Brexit+regret – Breksitdən peşmanlıq hissi, *Brexhaution*-Brexit+exhaustion – Breksitin uzun və yorucu proses olması, *Brextremist*-Brexit+extremist – barışmaz, kompromisə getməyən və ifrat mövqe nümayiş etdirən şəxsləri), iqtisadi və ticarətlə bağlı konseptlər (*Brecession*-Brexit+recession – Breksitin iqtisadi tənəzzülə gətirib çıxarması, *Brexonomics*-Brexit+economics – Breksitin iqtisadi vəziyyətə təsiri, *Brexflation*-Brexit+inflation – Breskitin inflyasiyaya gətirib çıxarması, *Brexport* – Brexit+export– Breksitin ixracata ziyan vurması), media və mədəniyyətlə bağlı konseptlər (*Brexicon*-Brexit+lexicon –Breksitin lüğət tərkibində özünəməxsus yer tutması, *Brexspeak* – Breksitlə bağlı danışıqlar, *Brexploitation* – Brexit+exploitation – Breksitin iqtisadi və kommersiya məqsədilə istismarı) adlanır.

II fəsil **"Breksitin müasir ingilis dilinin lüğət tərkibinə təsiri"** adlanır. Bu fəslin ***"Breksitlə bağlı işlənən pozitiv söz və ifadələr"*** adlı birinci paraqrafında Breksit diskursunda yeni yaranmış

və ya mövcud sözlərin yeni mənada birləşdirilməsi yolu ilə formalaşan, Breksit hadisəsinə müsbət qiymət və emosional məna verən leksik vahidlər araşdırılır.

Breksit diskursunda pozitiv söz və ifadələr hadisəni azadlıq, suverenlik, iqtisadi fayda, milli qürur və gələcək imkanlarla əlaqələndirmək məqsədi daşıyır. V.Katermina və N.Salovyova (2019) qeyd edirlər ki, *Brexit* neologizmi müxtəlif kontekstlərdə fərqli, o cümlədən pozitiv aksioloji məna qazana bilir[9]. Breksitlə bağlı yeni sözlərin yaranmasında blending, affiksasiya və söz birləşməsi kimi söz yaradıcılığı üsulları mühüm rol oynayır.

Breksit tərəfdarlarını ifadə edən əsas pozitiv terminlərdən biri *Breksiteer*dir. Bu termin Breksit tərəfdarlarının siyasi identifikasiyasını ifadə edir və bəzi media kontekstlərində qətiyyət, vətənpərvərlik və milli maraqların müdafiəsi ilə əlaqələndirilir.

Suverenlik və müstəqillik ideyaları *Global Britain, Sovereign Britain, Take Back Control, Free Britain* və *Brexit freedoms* kimi ifadələr vasitəsilə təqdim olunur. Bu ifadələr Britaniyanın Aİ-dən ayrıldıqdan sonra daha müstəqil və qlobal dövlət kimi inkişaf edə biləcəyi fikrini gücləndirir. "Take back control" – Milli suverenliyin ritorikası olan bu ifadə 2016-cı ildə "Vote Leave" kampaniyasının əsas şüarına çevrildi. Xüsusilə *The Sun, Daily Mail* və *The Telegraph* kimi sağ meylli tabloid və broadsheet qəzetlərdə geniş yer aldı. *"Britain will take back control its borders for the first time in decades after we quit EU, Theresa May vows"*[10]. Burada "take back control" ifadəsi pragmatik gücə malikdir və oxucuda idarəetmə hüququnun geri alınması ilə bağlı güclü emosional rezonans yaradır. İfadə həm vokativ, həm də mobilizasiyaedici funksiyanı yerinə yetirir.

İqtisadi üstünlükləri ifadə edən *Brexit bonus, Brexit dividend* və *Brexit opportunity* kimi vahidlər Breksitin mümkün faydalarını ön plana çıxarır. *Brexoptimism* və *A New Dawn for Britain* kimi ifadələr

[9] Катермина, В В., & Соловьева, Н.С. Аксиология неологизма Brexit в англоязычном массмедийном дискурсе. // Актуальные проблемы филологии и педагогической лингвистики, – 2019. № 3, – с.103–111.

[10] Alain Tolhurst. "Britain will take back control its borders for the first time in decades after we quit EU, Theresa May vows" // The Sun. – 2018, 2 October

isə gələcəyə nikbin münasibət formalaşdıraraq Breksitdən sonrakı dövrü yeni imkanlar və inkişaf mərhələsi kimi təqdim edir. "A new dawn for Britain" ümidverici metafor kimi *The Daily Telegraph* və *The Times* qəzetlərində referendum günü tez-tez manşetlərdə yer aldı.

"Friday morning news briefing: Brexit Day – 'dawn of a new era" ifadəsində metaforik konstruksiya olan "new dawn" ifadəsi pozitiv gələcək vizyonu yaradır[11]. O, Breksiti bir "oğurlanmış gələcəyin bərpası" kimi təqdim edir. Dil baxımından bu, həm poetik, həm də ideoloji yüklü bir ifadədir.

Milli kimlik və vətənpərvərlik *Red, White and Blue Brexit, Believe in Britain* və *Our proud nation* kimi ifadələrdə əks olunur. Bu vahidlər Breksit anlayışını Britaniyanın milli dəyərləri, tarixi və dövlətçilik ənənələri ilə əlaqələndirir.

Beləliklə, Breksit diskursunda pozitiv leksika əsasən suverenlik və azadlıq, iqtisadi fayda, nikbin gələcək, milli kimlik və Breksit tərəfdarı identikliyi ifadə edən söz və birləşmələrdən ibarətdir. Bu leksik vahidlər Breksitin müsbət çərçivədə təqdim edilməsinə və auditoriyada müsbət münasibət formalaşdırılmasına xidmət edir.

İkinci fəslin ***"Breksitlə bağlı işlənən neqativ söz və ifadələr"*** adlı ikinci paraqrafında Breksit diskursunda müşahidə olunan mənfi leksika yalnız hadisələri təsvir etmir, həm də auditoriyada qorxu, narahatlıq, qeyri-müəyyənlik və etimadsızlıq yaratmaq, siyasi mövqeləri əsaslandırmaq və rəqibləri mənfi təqdim etmək üçün praqmatik vasitə kimi istifadə olunur.

Breksitlə bağlı yaranmış yeni sözlər arasında *Bremain, Bregret, Regrexit, Brexitannia, Breturn, Brextremist, Brexhaustion, Brextension, Bremoaner, Remoaner, Rejoiner, Brexity, Brexiteering* və digər vahidlər mühüm yer tutur. *Bremain* Britaniyanın Aİ-də qalmasını, *Bregret* və *Regrexit* isə Breksit qərarına görə peşmanlığı ifadə edir. *Breturn* Britaniyanın Aİ-yə qayıtması ideyasını bildirir.

Brextremist, Bremoaner və *Remoaner* kimi ifadələr əsasən qarşı tərəfi mənfi qiymətləndirmək məqsədi daşıyır. *Brexhaustion* Breksit danışıqlarından yaranan yorğunluğu, *Brextension* isə Breksit prosesinin uzadılmasını ifadə edir.

[11] Danny, Boyle."Friday morning news briefing: Brexit Day - 'dawn of a new era". // The Telegraph. – 2020, 31 January.

Breksit diskursunda *No-deal Brexit, Hard Brexit, Brino, Dirty Brexit, Botched Brexit, Blind Brexit* kimi ifadələr də geniş işlənmişdir. *No-deal Brexit* razılaşmasız çıxışı, *Hard Brexit* Aİ ilə əlaqələrin daha sərt şəkildə kəsilməsini, *Brino* isə "yalnız ad olaraq Breksit" anlayışını bildirir. *Botched Brexit* Breksit prosesinin uğursuz idarə edilməsini, *Blind Brexit* isə gələcək şərtlər dəqiqləşdirilmədən Aİ-dən çıxışı ifadə edir.

Bundan başqa, *Brexit uncertainty, Final say, Hard border, Article 50, Eurosceptic, Euromyth və Project Fear* kimi terminlər Breksitin siyasi, hüquqi və ideoloji aspektlərini əks etdirir. Xüsusilə *Project Fear* həm Leave, həm də Remain kampaniyalarının seçicilərə qorxu və narahatlıq üzərindən təsir göstərməsi ilə əlaqələndirilir.

Breksit diskursunda metaforlar da mənfi konnotasiyanın gücləndirilməsində mühüm rol oynayır. *"Brexit is a disaster"* metaforu Breksitin təhlükəli və böhran yaradan hadisə kimi qavranılmasına səbəb olur. *Brexit turmoil, Brexit fallout, Brexit chaos* ifadələri siyasi qeyri-sabitlik, mənfi nəticələr və xaos anlayışlarını ön plana çıxarır. *Economic Armageddon* isə Breksitin iqtisadi nəticələrini son dərəcə dramatik formada təqdim edir.

Digər mühüm metaforik modellər *"Brexit is war"* və "*Brexit is an illness"* ifadələridir. Müharibə metaforunda *battle, fight, victory, defeat, attack, defend, opponent* kimi sözlər siyasi qarşıdurmanı təsvir edir. Xəstəlik metaforunda isə *sickness, fatigue, fever* kimi sözlər Breksitin problem və böhran kimi qavranılmasına xidmət edir.

Ümumilikdə, Breksit diskursunda yeni sözlərin birləşmə, konversiya və affiksasiya yolu ilə yaranması diqqəti cəlb edir. *Bregretter, Bremainer, Brexity, Brexiting, Brexited, Brexiteering* kimi formalar Breksit anlayışının müxtəlif siyasi və emosional mənalarını ifadə edir. Metaforik ifadələr isə Breksitin fəlakət, müharibə, xəstəlik, xaos və böhran kimi təqdim edilməsinə imkan verərək onun mənfi qiymətləndirilməsini gücləndirir.

2016-cı il Avropa İttifaqından çıxmaqla bağlı Böyük Britaniyada keçirilmiş referendum yalnız siyasi deyil, eyni zamanda diskursiv bir sərhəd xətti rolunu oynamışdır. Breksit ("Brexit") termini artıq tək siyasi yox, dil və mətbuat diskursunun mərkəzinə çevrilmişdir. Bu proses ərzində siyasi ritorika, media diskursu və

ictimai debatlarda çoxsaylı neqativ yüklü ifadələr, metaforlar və neologizmlər yaranmışdır. Bu məqalə Breksit diskursunda işlənən neqativ leksikanın başlıca formalarını – metaforları, siyasi etiketləmələri, satirik ifadələri və qorxu ritorikasını təhlil etməyi hədəfləyir.

1. Metaforik Neqativlik: Xaos və Təhlükə Diskursu. Breksitə dair media mətbuatda tez-tez işlənən metaforlar prosesin qeyri-müəyyən, fəlakət dolu və idarəolunmaz xarakterini vurğulamaq üçün işlənib. Xüsusilə "cliff-edge Brexit", "crash out of the EU", "economic Armageddon", "Brexit chaos" kimi ifadələr Avropa İttifaqından müqaviləsiz çıxışı təhlükəli ssenari kimi qavratmaq üçün məqsədyönlü istifadə olunmuşdur[12]. Bu metaforalar sosial qorxu, qeyri-məsuliyyət hissi və ictimai etibarsızlıq yaratmaqda rol oynamışdır.

2. Siyasi Etiketləmə: "Xalq Düşmənləri" və "Xainlər". Tabloid mətbuatında (xüsusilə *Daily Mail*, *The Sun*, *Daily Express*) Breksitə qarsı çıxan siyasi fiqurlar "traitor" (xain), "saboteur" (məhv edici), "enemy of the people" (xalq düşməni) kimi neqativ yüklü etiketlərlə adlandırılıb. Bu ifadələr populist ritorikanın tipik nümunələridir və qütbləşməni dərinləşdirən diskurs strategiyası hesab olunur[13].

3. Neologizmlər və Satirik Leksika. Breksit dövründə yaranan neologizmlər də diskursun neqativ yönülü və ironik xarakterini aşkar edir. "Brexshit" (Brexit + shit), "Regrexit" (regret + Brexit), "Brextremist" (Brexit + extremist), "Boomer Brexit" kimi ifadələr ictimai narazılıq, radikallıq tənqidi və nəsilarası münaqişəni təmsil edir. Bu sözlər media diskursunda və sosial şəbəkələrdə geniş istifadə olunmuşdur.

4. Qorxu Ritorikası: Gələcəyin Fəlakətləşdirilməsi. "Project Fear" adlandırılan kampaniyalar mətbuatda qorxu ritorikasının istifadəsinin bir hissəsi kimi qiymətləndirilir. İqtisadi böhran, beynəlxalq tənhalıq, gənclərin perspektivsizliyi kimi təhlükələr "brain drain", "loss of rights", "food shortages" kimi ifadələrlə vurğulanıb[14].

---

[12] Charteris-Black, J. Metaphors of Brexit: No Cherries on the Cake? – Palgrave Macmillan, – 2019. – p.289

[13] Wodak, R. The Politics of Fear: What Right-Wing Populist Discourses Mean. – Sage, – 2015. – p.137-140

[14] Koller, V., Kopf, S., & Miglbauer, M. Discourses of Brexit. – Routledge, – 2019. – 251 p.

Bu ritorika daha çox broadsheet mətbuatda *The Guardian, Financial Times* öncəlik tuta bilmişdir. Bunun əksinə olaraq, broadsheet qəzetlər – *The Guardian, The Financial Times, The Independent* və digərləri – daha analitik, balanslı və reflektiv yanaşma sərgiləmişdir. *"Brexit would weaken Britain's global influence"* və *"EU is not perfect, but it protects workers' rights"* kimi başlıqlarda qorxu ritorikası yerinə, məntiqə əsaslanan arqumentlər və kompromis təklifləri ön plana çıxarılmışdır. Bu qəzetlərdə istifadə olunan dil, seçicini düşünməyə təşviq edən praqmatik ritorika ilə xarakterizə olunur.

III fəsil **"Breksitlə bağlı söz və ifadələr inandırma və təsiretmə vasitəsi kimi"** adlanır. Bu fəsildə Breksit diskursunda inandırma və təsiretmə vasitələri araşdırılır. III fəslin ***"Britaniya media diskursunda Breksitlə bağlı söz və ifadələr inandırma vasitəsi kimi"*** adlı birinci paraqrafında Breksit diskursunda istifadə olunan dil nümunələrinin təhlili aparılmışdır. Siyasi diskurs əsasən dilin inandırma və manipulyasiya funksiyalarına əsaslanır. Kampaniya zamanı "Leave" tərəfi suverenlik və immiqrasiya ilə bağlı uzun müddətdir mövcud olan mövzuları ön plana çıxardı. Bunun əksinə olaraq, "Remain" kampaniyası Aİ-də qalmağın lehinə müsbət və inandırıcı bir strategiya formalaşdıra bilmədi. Bunun səbəblərindən biri həmin motivlərin əvvəlki dövrlərdə media və siyasətçilər tərəfindən kifayət qədər və hərtərəfli şəkildə formalaşdırılmaması idi.

"The will of the people" – Bu ifadə demokratik legitimliyi vurğulamaq üçün intensiv istifadə edilmişdir. Breksit tərəfdarları "xalqın iradəsi" anlayışını mərkəzə qoyaraq qərarların legitimliyini təsdiq etməyə çalışmışlar. Lakin, bu termin populist diskursun əsas komponenti olaraq, siyasi çoxluğun iradəsini universal və mübahisəsiz həqiqət kimi təqdim edir. Bu da əks fikirləri "xalqın maraqlarına zidd" kimi çərçivələndirərək ictimai müzakirəni məhdudlaşdırır.

Linqvistik olaraq, "the will of the people" ifadəsi konkret subyekti göstərmədən, məchul və abstrakt anlayışa istinad edir ki, bu da ona universallıq və səlahiyyət gücü qazandırır[15].

[15] Chilton, P., & Schäffner, C. Politics as Text and Talk: Analytic Approaches to Political Discourse. – John Benjamins Publishing, – 2002. – p.1-45

"Brexit means Brexit" – Theresa May-in məşhurlaşdırdığı bu ifadə, semantik cəhətdən məzmun baxımından zəngin deyil, lakin siyasi kontekstdə mövqeyə qətiyyət və qeyri-sual doğurmayan qərarlılıq mesajı verir. Bu ifadə siyasi ritorikada müəyyənlik və sabitlik görüntüsü yaratmaq üçün istifadə olunur, oxucuda və dinləyicidə sual doğurmamaq məqsədini güdür[16].

"Get Brexit done" – Boris Consonun seçki kampaniyasında əsas şüar kimi istifadə edilən bu ifadə, mürəkkəb və uzunmüddətli siyasi prosesləri sadələşdirərək, ictimaiyyətin yorğunluğunu və dəyişiklik istəyini əks etdirir. Bu, siyasi sadələşdirmə və ümumi nəticəyə çağırışdır ki, auditoriyada ümidi və hərəkətə keçmə arzusunu oyadır.

"Take back our borders" və *"Defend British jobs"* – Bu ifadələr immiqrasiya məsələsini milli təhlükəsizlik və iqtisadi rifah kontekstində çərçivələndirir. Belə dil, "biz" və "onlar" qütbləşdirilməsini gücləndirərək, başqalarını xariciləşdirmə (othering) strategiyasına xidmət edir. İmmiqrasiya ilə bağlı qorxu və narahatlıqların artırılması məqsədi daşıyan bu ritorika, millətçilik və suverenlik ideyalarını ön plana çəkir[17].

Bu nümunələr göstərir ki, Breksit diskursunda istifadə olunan söz və ifadələr yalnız informasiya verməklə kifayətlənmir, həm də ictimai rəyin formalaşması və yönləndirilməsi üçün xüsusi məqsədlərlə seçilir. Dil vasitəsi kimi bu sözlər həm emosional, həm də ideoloji təsir yaradır, sosial qütbləşməni gücləndirir və ictimai davranışları istiqamətləndirir.

III fəslin ***"Britaniya media diskursunda Breksitlə bağlı söz və ifadələr təsiretmə vasitəsi kimi"*** adlı ikinci paraqrafında medianın təsiri ilə insanların ictimai fikrinin dəyişilməsi əks olunur.

Breksit mövzusu Britaniya mediasında ictimai rəyin formalaşmasında əsas diskurs vasitəsi olmuşdur. Bu diskursda istifadə olunan söz və ifadələr yalnız informasiya ötürmək üçün

[16] Cameron, D. "Brexit means Brexit": Discourse analysis of a political slogan. // Journal of Language and Politics, – 2016. 15(4), – p.523-543.

[17] Hawkins, R., & Milford, D. Media, Migration and Public Opinion: UK Press Coverage and Its Impact. – Routledge, – 2018.

deyil, həm də siyasi mövqelərin inandırıcı şəkildə təqdim olunması və ictimai rəyin istiqamətləndirilməsi məqsədi daşıyır.

Neoloji Terminlər və Siyasi Markalaşma – Məsələn, "Brexiteer" və "Remainer" kimi terminlər siyasi kampaniyalarda geniş yayılmışdır. "Brexiteer" kimi ifadə, Breksit tərəfdarlarını birləşdirən identifikasiya vasitəsi olmaqla yanaşı, siyasi qütbləşməni də gücləndirmişdir. Bu terminlər, *The Guardian* qəzetində dəfələrlə istifadə olunaraq mövqelərin qabarıq şəkildə fərqləndirilməsinə xidmət etmişdir[18].

Emosional yüklənmə və stereotiplər – tabloid qəzetlərdə, xüsusilə *The Sun* və *Daily Mail*də, Breksitlə bağlı diskursda istifadə olunan ifadələrdə emosional yüklənmə və stereotiplər açıq-aydın sezilir. Məsələn, "EU invasion" (Aİ basqını), "swarm of migrants" (miqrant sürüsü) kimi ifadələr qorxu və təhdid atmosferi yaradır. Bu tip sözlər oxucuda ehtiyat və narahatlıq hissi formalaşdırır[19]. Tabloid mətbuat, məsələn, *The Sun, Daily Mail* və *Daily Express*, Breksit tərəfdarlarını dəstəkləyərək emosional, qütbləşdirici və qorxuya əsaslanan ritorikaya üstünlük vermişdir. "Migrants flood Britain", "Breaking point" və ya "We want our country back" kimi ifadələrdə metaforalar və hiperbolalar vasitəsilə təhlükə və təhdid obrazları yaradılmış, "biz və onlar" qarşıdurması gücləndirilmişdir. AB-nin gündəlik həyat üzərində nəzarəti ("EU to ban kettles, toasters...") şişirdilmiş şəkildə təqdim edilərək, Brüssel idarəçiliyinə qarşı ictimai qıcıq artırılmışdır.

Metaforik Dil və Simvolizm – "The Daily Telegraph" qəzetində tez-tez istifadə olunan "taking back control" və "freedom fight" kimi metaforlar Breksit diskursunda milli azadlıq və suverenlik ideyalarını simvollaşdırır. Bu metaforik ifadələr mürəkkəb siyasi prosesləri sadə və təsirli şəkildə təqdim edərək oxucuda güclü emosional təsir yaradır[20].

Qütbləşdirmə və Digərləşdirmə Strategiyaları – Mediada "biz" – "onlar" qütbləşməsi diskursu xüsusilə nəzərə çarpır. "EU diktatı",

[18] Brexiteers and Remainers: The language of Brexit. // The Guardian, – 2016.
[19] Hawkins, R., & Milford, D. Media, Migration and Public Opinion: UK Press Coverage and Its Impact. – Routledge, – 2018.
[20] Taking back control: The rhetoric of Brexit. // The Daily Telegraph. – 2016.

“Brüssel buruqçuları” kimi ifadələr Brüsseldəki Avropa mərkəzlərini mənfi obraz kimi təqdim edir. Bu da media vasitəsilə ictimaiyyətdə anti-Avropa və millətçi hisslərin artmasına xidmət edir. Bu tədqiqat göstərir ki, hər iki tərəf – həm Breksit tərəfdarları, həm də əleyhdarları emosional yüklü ifadələr, metaforalar, neologizmlər, düşmən obrazlarının yaradılması, “biz və onlar” qarşıdurması və ritorik suallar kimi müxtəlif dil və diskurs strategiyalarından istifadə etmişdir. Xüsusilə tabloid qəzetlərdə müşahidə olunan hiperbolik və qütbləşdirici ifadələr, xalqı qorxutmaq və səfərbər etmək məqsədi daşıyan metaforlar (“migrant waves” – “miqrant dalğası”, “Brusell’s dictation” – “Brüssel diktəsi”, “take back our sovereignty” – “öz suverenliyimizi geri alaq” kimi ifadələr) praqmatik baxımdan manipulyativ diskurs nümunələri kimi çıxış edir. Broadsheet qəzetlər isə daha neytral və analitik tonla çıxış etsələr də, onlar da oxucunun düşüncəsini yönləndirmək üçün daha incə ritorik vasitələrdən istifadə etmişlər.

Manipulyativ Dil və Statistikalar – 2016-cı il referendum kampaniyasında *“350 milyon funt sterlinq həftədə NHS-ə gedəcək”* ifadəsi geniş yayılmış, lakin bu iddianın kontekstdən çıxarıldığı sonradan sübut olunmuşdur. Bu tip manipulyativ ritorika seçicilərin emosiyalarına təsir göstərməklə yanaşı, yanlış məlumatlanmaya səbəb olmuşdur.

Milli özünü tərifləmə – Bu yanaşma ölkənin və milli dəyərlərin müsbət təqdimatını, milli kimliyin, tarixi nailiyyətlərin, demokratiya, azadlıq və insan hüquqları kimi dəyərlərin vurğulanmasını nəzərdə tutur. Bu strategiya siyasi diskursda müsbət milli obraz yaratmaq və auditoriyada milli qürur hissini gücləndirmək məqsədi daşıyır. Breksit diskursunda bu strategiyadan xüsusilə Britaniyanın gücü, müstəqilliyi, demokratiyası və özünüidarəetmə qabiliyyətini ön plana çıxarmaq üçün istifadə edilmişdir.

Dissertasiya işinin **Nəticə** hissəsində aparılan araşdırmanın əsas elmi müddəa və qənaətlərini aşağıdakı kimi təqdim edirik:

1. Britaniya mediası güclü tarixi və zəngin ənənələri ilə seçilir. *The Times, The Guardisan, The Daily Mail, The Sun, The Daily Express, The Daily Mirror* kimi qəzetlər ictimai məsələlərin həllində vacib rol oynamışdır. Broadsheet və tabloid qəzetlər Britaniya ictimaiyyətinin iki əks mövqeyini nümayiş etdirir. Tabloid (sari)

qəzetlər, əsasən, emosional, sadə, yığcam və oxucunun diqqətini cəlb edən dil vasitələrindən istifadə etmişdir. Broadsheet (keyfiyyətli, ciddi) qəzetlər isə eyni hadisəni daha çox analitik, faktoloji və siyasi-iqtisadi kontekstdə şərh etmişdir.

2. Britain/british+exit komponentlərinin birləşməsi nəticəsində yaranan Breksit termini siyasi, iqtisadi, sosial və emosional aspektləri təsnif edən və müxtəlif mikrokonseptləri (emosional, iqtisadi nəticələr, media və mədəniyyətlə) bağlı söz və söz birləşmələrinin (*Regrexit, Bregret, Brexodus, Brexiety, Brexonomics, Brexflation, Brexport, Brexploitation*) yaranmasına rəvac vermişdir.

3. Breksit leksikasının yaranmasında blending, affiksasiya, mürəkkəb sözlərin yaranması və semantik transformasiya kimi söz yaradıcılığı prosesləri mühüm rol oynamışdır. Xüsusilə *Breksit* komponentinin müxtəlif söz və ifadələrlə birləşməsi nəticəsində yeni nominativ və qiymətləndirici vahidlər meydana gəlmişdir.

4. Pozitiv Breksit neologizm və söz birləşmələri əsasən aşağıdakı semantik-praqmatik kateqoriyada qruplaşdırıla bilər: suverenlik və nəzarət, iqtisadi inkişaf və yeni imkanlar, nikbinlik və gələcəyə inam. *Global Britain, Take back control, Sovereign Britain, Breksit opportunities, Set Britain free* kimi söz birləşmələri suverenlik, demokratiya və siyasi özünüdərk məsələləri üzərində nəzarət ideyasını gücləndirir. *Breksit dividend, Breksit bonus,* və *bespoke deal* kimi vahidlər Breksiti iqtisadi qazanc, yeni əməkdaşlıq imkanları və müstəqil iqtisadi siyasət imkanları ilə əlaqələndirir. *A new dawn for Britain, Bright Future* və *Freedom to thrive* kimi ifadələr Breksitdən sonrakı dövrü tərəqqi, inkişaf və çiçəklənmə mərhələsi kimi təqdim edir.

5. Breksit diskursunda mənfi konnotasiyalı leksik vahidlər və ifadələr xüsusilə geniş yayılmışdır. *Hard Breksit, disorderly Breksit, bad Breksit, damaging Breksit, disruptive Breksit, cliff-edge Breksit, Breksit turmoil, Breksit chaos, Breksit fallout, Breksit deadlock, Breksit mayhem* və *broken Britain* kimi ifadələr siyasi prosesin riskli, qeyri-stabil, fəlakət yönümlü və dağıdıcı hadisə kimi təqdim edilməsinə xidmət etmişdir.

6. Breksitin mənfi təqdimatında metaforik çərçivələndirmə strukturları vacib önəm daşıyır. Breksit sözü *war, disaster, illness,*

chaos, journey, natural phenomenon sözləri ilə birləşərək konseptual metaforlar əmələ gətirmişdir və siyasi hadisənin həm müsbət, həm də mənfi emosiya yükünü artırmışdır. Məsələn, *disaster, crisis, fallout, cliff-edge* kimi vahidlər Breksit-i fəlakət modeli əsasında; *battle, fight, victory, defeat, attack, defend* kimi sözlər müharibə modeli əsasında; *trauma, fatigue, fever* isə xəstəlik modeli əsasında konseptuallaşdırmışdır.

7. Breksit diskursunda siyasi terminologiya ilə gündəlik media dilinin nümunələrini eyniləşdirilmişdir. *Brexitometer, Brexitology, Brexitophobia, Brexit uncertainty, final say, second referendum, hard border, smart border, regulatory alignment* kimi ifadələr siyasi məna kəsb etsələr də, mediada geniş oxucu kütləsi tərəfindən anlaşılan və istifadə edilən diskurs mənbələrinə də aiddir.

8. Auditoriyanı inandırmaq, ictimai rəyi formalaşdırmaq baxımından leave və remain kampaniyası müxtəlif siyasi mövqeləri dəstəkləmişdir. Leave mövqeyini dəstəkləyən əsas qəzet *Daily Express*, daha sonra ardıcıl olaraq *Daily Mail, Sun, Telegraph* qəzetləridir. Leave kampaniyası avroskeptik yanaşma (*borbardment approach*), inklüziv və eksklüziv dilin istifadəsi (we-they qarşıdurması), problem-həll modeli (*lost control-regain control*), iqtisadi arqumentlər, emosional vətənpərvərlik, müsbət transformasiya (*renewal-change*), delegitimləşdirmə (*undemocratic Brussel machine*) strategiyalarını inandırma vasitələri kimi istifadə etmişdir.

9. Naycl Farac, Boris Conson, Devid Kemeron, Ceremi Korbin kimi siyasi xadimlərin nitqində işlənən *container, war/invasion, shackles, journey, marriage/divorce* kimi konseptual metaforlar Breksit diskursunun inandırıcılığının artırılmasında önəmli yer tutmuşdur.

10. Siyasi diskursda qorxu və təhlükə ritorikası (*threat, invasion, fight, disaster, risk, damage, danger*), söz oyunu (*number game*) strategiyası [miqrasiya, iş yerləri, sosial müavinətlər ilə bağlı mənfi mənada böyük rəqəmlərin cəmiyyətdə təşviş doğurması, qütbləşdirmə strategiyası (Britaniyalılar-miqrantlar, Britaniya-Avropa İttifaqı), metaforik çərçivələnmə (*flood, vawe, invasion, tsunami)* kimi sözlərin Breksit prosesi ilə əlaqələndirilməsi, qarşı tərəfin mənfi təqdimatı Breksit diskursunun manipulyativ gücünü artırır.

Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. Pluralingualism and multilingualism in sociolinguistic studies // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı", – Bakı: Bakı Mühəndislik Universiteti, – 27-28 Aprel, – 2018, – s.1593-1595.
2. Britaniyanın Avropa Birliyindən çıxması (Breksitlə) bağlı işlənən pozitiv söz və ifadələr qəzet diskursunda // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı", – Bakı: Bakı Mühəndislik Universiteti, – 28-29 Aprel, – 2019, – s.1495-1497.
3. British media discourse as an indicator of the influence of Brexit process to modern English language // Proceedings of the 1st International Scientific and Practical Conference Scientific paradigm in the context of Technologies and Society Development. – Geneva, Switzerland,– 18-19 November, – 2021, – p.292-296.
4. Britaniya mətbuatı və onun tarixi // – Bakı: "Elm və təhsil" Azərbaycan Milli Elmlər Akademiyası, M.Fuzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2022. №5, – s.314-322.
5. Britaniya media diskursunun dili (Qəzet mənbələri əsasında) // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi Konfransı", – Bakı: Bakı Mühəndislik Universiteti, – 28-29 Aprel, – 2022, – s.1353-1355.
6. Breksitlə bağlı metonimiyalar // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Gənc Tədqiqatçıların VII Beynəlxalq Elmi Konfransı", – Bakı: Bakı Mühəndislik Universiteti, – 28-29 Aprel, – 2023, – s.1906-1908.
7. Britaniya mətbuatında ideoloji bölünmə və dil müxtəlifliyi // – Baku: Journal of Baku Engineering University. Philology and Pedagogy, – 2023. Volume 7, Number 2, – s.223-230.

8. Britaniyanın Avropa birliyindən çıxması (Breksit) prosesi və onun ingilis dilinə təsiri // – Bakı: “Elm və təhsil”, Azərbaycan Milli Elmlər Akademiyası, M.Fuzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2024. №7, – s.226-232.
9. The Brexit discourse and its influence to the modern English language. // I Международная научно-практическая конференция “Филология будущего, которое мы создаем: тенденции, смыслы, приоритеты”. Институт иностранных языков. – Москва: Московский международный университет, – 21 марта, – 2025, – p.101-106.
10. Brexit terms and their use in the British media // – Bakı: Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal, – 2025. Cild 5, Sayı 1, – p.22-25
11. Metaphorical strategies in Brexit discourse // Norwegian Journal of Development of the International Science, – 2025. №156, – p.76-80.
12. Words and phrases related to Brexit as persuasive tools in British media discourse. // Colloquium-journal, – 2025. №50(243), – p.131-134.
13. Britaniyanın Avropa Birliyindən çıxması (Breksit) ilə bağlı işlənən neqativ söz və ifadələrin praqmatik xüsusiyyətləri // – Baku Journal of Baku Engineering University, “Philology and Pedagogy”, – 2025. Volume 9, Number 1. – s.55-64.

Dissertasiyanın müdafiəsi 20 noyabr 2026-cı il tarixində saat 13:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.10.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 40221 işarə

Tiraj: 100